İdman

# Uğurlar hələ öndədir

Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə «2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı» qəbul olunmuşdur. Məqsəd bu idman növünü geniş yaymaq, onun kütləviliyini təmin etmək idi. Məlum sərəncamın qəbulundan sonra istər ölkəmizdə, istərsə də rayonumuzda idmanın bu növünün inkişafı istiqamətində xeyli işlər görülmüş, şahmatçılarımızın soraq və uğurlarının əhatə dairəsi, coğrafiyası genişləndirilmişdir. Yeniyetmə və gənclərimizin rolu isə danılmazdır. Belələrindən biri də Qəbələ şəhər 2 saylı tam orta məktəbin şagirdi, gənc şahmatçı Aydan Sahib qızı Hüseynzadədir.



Aydan hələ kiçik yaşlarından idmanın bu növü ilə məşğul olmağa başlamışdır. İlk vaxtlar təkcə şagird yoldaşları arasında şahmatçı kimi tanınan Aydan artıq 2005-ci ildən başlayaraq rayon birinciliklərinə qatılır və öz yaş qrupunda qalib olurdu. O, dəfələrlə Gəncə, Lənkəran, Şirvan, Neftçala, Zaqatala, İsmayıllı, Quba, Qusar, Kürdəmir şəhərlərində məktəbli oğlan və qızlar arasında keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında və 16 yaşadək yeniyetmələrin Respublika Şahmat Olimpiadalarında iştirak etmiş və mükafata layiq yerlər tutmuşdur.

Gənc şahmatçı 2011-ci ilin yanvar ayında oğlan və qızlar arasında Neftçala şəhərində keçirilən Azərbaycan çempionatında yüksək nəticə əldə edərək birinci dərəcəli şahmatçı normasını yerinə yetirdi. Ən böyük uğurunu isə həmin ilin fevral ayında qazandı. Təhsil Nazirliyinin xətti ilə məktəblilər arasında keçirilən Respublika şahmat turnirində 14 yaşlı qızlar arasında ən yüksək pilləyə yiyələnərək Nazirliyin birinci dərəcəli diplomuna layiq görüldü. İki ay bundan öncə--31 dekabr--Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş rayon birinciliyində Aydan öz yaş qrupunda yenə də hamıdan üstün oldu.

Bütün bünlarla yanaşı Aydan Hüseynzadə həm də şahmat bəstələrinin əyani həlli (şahmat bəstələciliyi) tərtibatı ilə də məşğul olur. 2012-ci ilin aprel ayında Şahmat bəstələciliyi üzrə 33-cü Azərbaycan çempionatında qadınlar arasında ikinci yeri tutaraq Respublika Gənclər və İdman Nazirliyinin Diplomu ilə təltif olunmuşdur.

Yeni ilimiz də gənc şahmatçı üçün uğurlu başlamışdır. 2013-cü ilin yanvar ayında Sumqayıt şəhərində keçirilən Şahmat Bəstələrinin əyani həlli üzrə Beynəlxalq turnirdə Aydan yüksək nəticə göstərərək qadınlar arasında Azərbaycan üzrə birinci yerə çıxmış, Respublika Şahmat Federasiyasının diplomuna və pul mükafatına layiq görülmüşdür.

Onun özünün tərtib etdiyi şahmat məsələlərinin həlli üzrə uğurlu qeydləri Beynəlxalq saytda, ABŞ-da nəşr edilən «State Gems» jurnalında, Azərbaycan Şahmat Federasiyasının Bəstəçilik Komissiyasının xüsusi bülletenində və «Olimpiya dünyası» qəzetində dərc edilərək böyük maraq dairəsi qazanmışdır.

Bu yaxınlarda—fevralın 1-də Gənclər gününə həsr edilmiş toplantıda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin yüksək uğurlara görə mükafatlandırdığı gənclər arasında şəhər 2 saylı tam orta məktəbin IX «b» sinif şagirdi Aydan Sahib qızı Hüseynzadə də var idi.

Gənc şahmatçımızın ən böyük uğurları isə hələ öndədir. Biz də öz növbəmizdə ona böyük uğurlar, şahmat taxtası arxasında yeni-yeni qələbələr arzulayırıq.

**M. RƏHİMOV,**
**«Qəbələ»nin əməkdaşı.**

# Rayon birinciliyi

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, onların fiziki hazırlıqlarının artırılmasında, həmçinin ordu sıralarına hazırlanmasında müstəsna əhəmiyyəti olan "Cəsurlar" hərbi-idman və turizm oyunlarının rayon birinciliyi Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı, Təhsil şöbəsinin iştirakı ilə 22 fevral 2013-cü il tarixdə Qəbələ şəhər 2 saylı tam orta məktəbdə keçirilmişdir.

Yarışın açılış mərasimində GİI-nin rəisi Fəxri Soltanov çıxış edərək komandaları salamlamış və "Cəsurlar" hərbi - idman və turizm oyununun keçirilməsində məqsədin yeniyetmələrlə aparılan hərbi vətənpərvərlik tərbiyəsi işini daha da gücləndirmək, orta məktəb şagirdlərinin hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlığını və turizm hərəkatının inkişaf etdirilməsini təmin etməkdən ibarət olduğunu bildirdi. F .Soltanov çıxışında onu da qeyd etdi ki, "Cəsurlar" hərbi-idman və turizm oyununun məktəbdaxili seçmə yarışları artıq yekunlanmışdır, bu gün oyunların ikinci mərhələsi olan rayon birinciliyi yarışıdır. Rayon birinciliyində qalib gələn komanda Zaqatala şəhərində keçiriləcək zona mərhələsində rayonumuzu təmsil edəcəkdir.

Rayonun orta ümumtəhsil məktəblərinin komandalarının iştirak etdiyi yarış gərgin idman mübarizəsi şəraitində keçmişdir. Yarışın əsasnaməsinə uyğun olaraq sıra hazırlığı mərhələsi keçirildikdən sonra komandalar estafet mərhələsini davam etdirmişlər.

Yarışın yekun nəticəsinə əsasən Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası I yeri, şəhər 3 saylı tam orta məktəbin komandası II yeri və Soltannuxa kənd tam orta məktəbin komandası III yeri tutmuşdur. Qalib komandalar Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılmışdır.

**Mübariz AĞAYEV,**
**GİI-nin aparıcı**
**məsləhətçisi.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən seyidqışlaq kənd sakini Ağayev Aydın Həsən oğlunun adına 26 may 1998-ci il tarixli 10 saylı qərarla verilmiş JN-0043(kod 40603038) torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Nic qəsəbə sakini Əliyev Nazim Mədət oğlunun adına verilmiş JN-137 B saylı (kod 40600068) Torpağın mülkiyyət hüququna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Şəhər 1 saylı tam orta məktəbin müəllim kollektivi iş yoldaşları **Rahilə Şirinovaya,** anası

**SAFURA XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi 2013–2014-cü tədris ili üçün Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulunu

# ELAN EDİR

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırılçı kimi hərbi komissarlıqda qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli 16 yaşından 18 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında DİN tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər.

İmtahanlar test üsulunda 3-cü qrup fənləri üzrə Azərbaycan və rus dilində keçirilir.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Qəbələ rayon polis şöbəsinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

—şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

—təhsil müəssisəsinin buraxılış sinifndə oxuması haqqında DİN-nə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

—yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-nə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

—çağırış məntəqəsinə təhkim edilmə vəsiqəsi (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

—oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-nə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

—9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2013-cü ilin aprel ayının 20-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10-dan 17-dək Qəbələ Rayon Polis Şöbəsində keçiriləcək.

DİN-Tel: 590-98-16, 18-16,
590-97-76, 17-76
Qəbələ RPŞ: (024) 205-18-28,
(024) 205-18-22
İnternet ünvanı: DİN-www.mia.-gov.az.
Polis Akademiyası-www.pa.edu-.az.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.